**Əlixan Musayev**

# Ölümsüz həyat xülyası

**Redaksiya heyəti**

**Əbu Yəhya**
**F. Allahverdiyev**

**Kompüter tərtibatı**

**E. Rüstəmov**

Diqqətli oxucu! Kitabda rast gələnən ərəbcə dua-ifadələrin oxunuşu aşağıdakı kimidir:

ﷺ – *sallallahu aleyhi və səlləm* – Ona Allahın salavatı və salamı olsun.

عليه السلام – *aleyhis-səlam* – Ona salam olsun.

رضي الله عنه – *radıyallahu anhu* – Allah ondan razı olsun.

رضي الله عنهما – *radıyallahu anhumə* – Allah hər ikisindən razı olsun.

رحمه الله – *rahiməhullah* – Allah ona rəhmət eləsin.

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Möhtərəm müsəlmanlar! Bu kitabçada biz sizə, yer üzündə fəsadlara səbəb olan və elə bu səbəbdən də müalicəsi vacib olan bir xəstəlik haqqında söhbət açacağıq. Bu xəstəlik tibb elmi ilə müəyyən edilən bir xəstəlik deyil ki, onu dərmanla və ya əməliyyatla müalicə edə bilək. Peyğəmbərin ﷺ “Bədəndə bir ət parçası

var. Əgər o korlanarsa, bütün bədən əzaları korlanar"[1] hədisi hamınıza məlumdur. Həmin hədisdə Peyğəmbər ﷺ bu ət parçasının qəlb olduğunu bildirir. Həqiqətən, qəlb xəstəlikləri şirk, küfr, nifaq, tamahkarlıq, paxıllıq, kin-küdurət, həsəd və s. kimi ən qorxulu xəstəliklərdəndir. Əgər yer üzündə baş verən fəsadları və cinayətləri araşdırsanız, onların bir qisminin məhz qəlb xəstəlikləri üzündən meydana gəldiyinin şahidi olarsınız. İblisin Allaha asi olması, Adəm peyğəmbərin عليه السلام oğlanlarından birinin digərini qətlə yetirməsi, Yusuf peyğəmbərin عليه السلام qardaşlarının onu öldürmək məqsədilə quyuya atması, İsa peyğəmbərin عليه السلام qövmünün onu çarmıxa çəkməyə cəhd etməsi və nəhayət, Muhəmməd peyğəmbərin ﷺ qövmünün on üç il Məkkədə ona əziyyətlər verməsi məhz qəlb xəstəliyinə görə baş vermişdir.

Qeyd edək ki, bu xəstəliklər insanın qəlbində sonradan əmələ gəlir. Belə ki, Allah insanın

[1] "Səhih əl-Buxari", 52; "Səhih Muslim", 1599.

qəlbini təmiz yaradır. Quranda: **"Biz insanı ən gözəl biçimdə yaratdıq!"**[1] deyilir.

Bu o deməkdir ki, insan dünyaya gəldikdə onun qəlbində o xəstəliklərin heç biri olmur.

Bu kitabçada söhbət açacağımız xəstəlik isə insanın sanki heç ölməyəcəyi kimi arxayın yaşamasıdır. Bu xüsusda Quranda belə xəbər verilir: **"Özlərinə hidayət yolu bəlli olduqdan sonra *haqdan* üz çevirən kimsələrə şeytan *günah işləri* gözəl göstərmiş və onlara uzun ömür vəd etmişdir."**[2]

Digər ayədə də belə buyurulur: **"Qoy, onlar *bir müddət* yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. *Onlar ziyana uğradıqlarını* tezliklə biləcəklər."**[3]

Bu ayələrdən aydın başa düşülür ki, insana axirəti unutduran xülyalarla sanki heç ölməyəcəyi kimi yaşaması qadağandır.[4]

---

[1] "ət-Tin" surəsi, 4.

[2] "Muhəmməd" surəsi, 25.

[3] "əl-Hicr" surəsi, 3.

[4] "Təfsir ən-Nəsəfi", 2/183.

İmam Qurtubi ﷺ demişdir: "Xam xəyal – fani dünya malına həris olmaq, qəlbi ona bağlamaq və Axirətdən üz çevirməkdir."[1]

Qeyd edək ki, insanın xəyallarla yaşaması təbii xislətdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Yaşlı adamın qəlbindəki iki istək hər zaman cavan qalır – dünya sevgisi və uzun ömür sürmək arzusu."[2]

Digər rəvayətdə də o ﷺ demişdir: "Adəm övladı böyüdükcə qəlbindəki iki istək də böyüyür: mal-dövlət sevgisi və uzun ömür yaşamaq arzusu."[3]

İbn Həcər ﷺ bu hədisi izah edərkən demişdir: "Əgər arzu və xəyallar olmasaydı, heç kəs həyatdan zövq almaz və gələcəyi üçün işlər görməzdi. Bu məsələdə qadağan edilən əməl, yalnız dünya malını əldə etmək üçün yaşamaq və axirətdən üz çevirməkdir."[4]

---

[1] "Təfsir əl-Qurtubi", 10/2-3.
[2] "Səhih əl-Buxari", 6420.
[3] "Səhih əl-Buxari", 6421.
[4] "Fəth əl-Bari", 11/237.

**“Əgər Biz onlara illərcə firavanlıq nəsib etsək, sonra vəd olunduqları *əzab* onlara yetişsə, onlara nəsib olmuş firavanlıq *əzabımızı* onlardan dəf edə bilməz.”**[1]

Deməк, bu dünyada əldə edilən mal-dövlətin Allah yanında heç bir dəyəri yoxdur. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: “Əgər bu dünyanın Allah yanında ağcaqanadın qanadı qədər dəyəri olsaydı, kafirə bir içim su belə verilməzdi.”[2]

“Birinizin Cənnətdə qamçı qoyduğu yer, dünya və onun içindəkilərdən xeyirlidir.”[3]

“Sübh namazının iki rükəti, dünya və onun içindəkilərdən xeyirlidir.”[4]

Bu hədislər dünyanın fani olduğunu və axirətlə müqayisədə Allah yanında heç bir dəyəri olmadığını göstərir. Buna etiqad edən hər kəs öləcəyini daim xatırlamalı və ölüm-

---

[1] “əş-Şuəra” surəsi, 205-207.

[2] “Sunən ət-Tirmizi”, 2/52; “Silsilə əl-Əhadis əs-Səhihə”, 686.

[3] “Səhih əl-Buxari”, 2796.

[4] “Səhih Muslim”, 725.

dən sonrakı əbədi həyata hazırlıq görməlidir. Belə ki, əcəlin insanı hər an haqlaya biləcəyi danılmaz haqdır, ölüm barədə düşünmədən, uzun illər yaşamaq arzusu isə xam xəyaldır. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir dəfə Peyğəmbər ﷺ əlindəki çubuqla yerdə dördbucaq cızdı. Sonra onun ortasından xaricinə bir düz xətt çəkdi, həmin xətt boyu da qısa-qısa xətlər cızıb dedi:



“Bu, insandır. Bu *dördbucaq* onun əcəli, bu *düz xətt* onun arzuları, bu qısa xətlər də *qədərinə yazılmış* müsibətlərdir. İnsan arzularla yaşadığı bir vaxtda yaxın olan əcəli onu haqlayar.”[1]

Hədisdən aydın başa düşülür ki, hər bir insan arzularla yaşasa da, əcəl onun bir çox arzularının həyata keçməsinə imkan vermir. Odur ki, ağıllı insan əbədi Axirət yurduna

---

[1] “Səhih əl-Buxari”, 6417.

hazırlıq görməlidir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gün səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, hansı mömin möminlərin ən ağıllısı sayılır?" Peyğəmbər ﷺ dedi: "Ölümü tez-tez xatırlayan və ölümdən sonrakı həyata tədarük görəni – məhz belələri ağıl sahibləridir."[1]

Digər hədisdə o ﷺ demişdir: "*Dünyadakı* ləzzətlərə son qoyan ölümü tez-tez xatırlayın!"[2]

Həmçinin rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما demişdir: «*Bir dəfə* Peyğəmbər ﷺ mənim çiynimdən tutub dedi: "Dünyada bir qərib, yaxud bir müsafir kimi ol!"»

İbn Ömər رضي الله عنهما (bu hədisi rəvayət etdikdə) deyərdi: "Axşama yetişdiyin zaman səhərə sağ qalacağına, səhərə yetişdiyin zaman da axşama sağ qalacağına arxayın olma! Xəstələnənədək

---

[1] "Sunən İbn Macə", 2/565; Beyhəqi, "əz-Zuhd əl-Kəbir", 2/52; "Silsilə əl-Əhadis əs-Səhihə", 1384.

[2] "Sunən ən-Nəsai", 1/258; "Sunən ət-Tirmizi", 2/50; "Səhih əl-Cami", 1210.

sağlamlığından və ölənədək həyatından istifadə et!"[1]

İmam əş-Şafii ﷺ öz şeirində demişdir:

*Ağlayırdın ey insan sən dünyaya gələndə,*
*Sevinib gülürdülər, insanlar yan-yörəndə.*
*Özün üçün gün ağla, elə işlər gör ki sən,*
*Onlar ağlayan zaman, sevinəsən, güləsən.*[2]

Nizami Gəncəvi ﷺ isə belə demişdir:

*İstər bir gün yaşa, istərsə yüz il,*
*Bu nurlu eyvandan köçəcəksən, bil.*
*Yaxşısı budur ki, könlünü şad et,*
*O böyük Allahı şadlıqla yad et!* [3]

İnsan ölümü tez-tez xatırladıqca təqvası artır və qəlbi rahatlıq tapır, axirəti unudub dünyaya könül bağladıqda isə, əksinə, qəlbi sərtləşir və günahla dolur. Bu günahlar o qədər

[1] "Səhih əl-Buxari", 6416.
[2] "Bəyan əhəmmiyyətul-vəqt", səh. 22.
[3] "Xosrov və Şirin", səh. 53.

çoxala bilər ki, axırda qəlbi tamamilə bürüyər və Allah o günahkar qəlbi birdəfəlik möhürləyər. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: «Mömin bəndə günah işlətdiyi zaman onun qəlbinə bir qara nöqtə düşür. Tövbə edib o günahdan çəkindikdə və bağışlanma dilədikdə isə qəlbi yenidən təmiz olur. Tövbə etməyib, günah işlətməyə davam etdikdə isə qara nöqtələrin sayı artır. Bu haqda Quranda belə buyurulur: **"Xeyr, onların qəlbini qazandıqları *günahlar* bürümüşdür."**[1]»[2]

Yuxarıda deyilənlərdən bizə aydın olur ki, "ölümsüz həyat xülyası" çox qorxulu xəstəlikdir, lakin Peyğəmbərin ﷺ: "Allah elə bir xəstəlik göndərməyib ki, onun dərmanını vermiş olmasın"[3] hədisində qeyd etdiyi kimi, bu xəstəliyin də dərmanı vardır.

---

[1] "əl-Mutaffifin" surəsi, 14.

[2] "Sunən İbn Macə", 4244; "Səhih əl-cami", 1670.

[3] "Musnəd imam Əhməd", 1/377; "Silsilə əl-Əhadis əs-Səhihə", 451.

Qəlb xəstəliklərinin dərmanı Allahı yad etmək olduğu üçün, bu xəstəlikdən də qurtulmağın yolu çoxlu Quran oxumaq, zikr və dua etməkdır. Bu xüsusda uca Allah bunları buyurur:

**"Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır."**[1]

**"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, qəlblərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir."**[2]

**"Biz Quranda möminlər üçün şəfa və mərhəmət** ***olan ayələr*** **nazil edirik.** ***Bu ayələr*** **zalımların ancaq ziyanını artırır."**[3]

**"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirəcəyik."**[4]

---

[1] "ər-Rəd" surəsi, 28.

[2] "Yunus" surəsi, 57.

[3] "əl-İsra" surəsi, 82.

[4] "Ta ha" surəsi, 124.

Peyğəmbər ﷺ demişdir: “Rəbbini zikr edən kimsə ilə Onu zikr etməyən kimsənin misalı, diri ilə ölünün misalına bənzəyir.”[1]

Dünyaya könül bağlayan insan bilməlidir ki, Cənnətdəki nemətlər dünya ilə müqayisə olunmayacaq qədər çox və xeyirlidir.

Rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: “Qiyamət günü uca Allah Cəhənnəmə vasil olanlardan dilədiyinə mərhəmət göstərmək istədiyi zaman mələklərə, “*lə ilahə illəllah*” deyənlərdən Allaha heç bir şeyi şərik qoşmamış kəsləri *oradan* çıxarmağı əmr edəcək..

Nəhayət, uca Allah Öz qulları arasında mühakiməsini bitirdikdə üzü Cəhənnəmə tərəf olan bir nəfər qalacaq. Bu adam Cənnətə girən kimsələrin axırıncısı olacaq. O deyəcək: “Ey Rəbbim! Üzümü oddan döndər, çünki onun tüstüsü məni zəhərləyir, alovu da məni yandırıb-yaxır!” Bu adam Allaha çoxlu dua edəcək, sonra uca Allah buyuracaq: “İstədiyini yerinə yetirsəm, başqa bir şey istəməyəcəksən ki?”

---

[1] “Səhih əl-Buxari”, 6407.

*Adam*: “Heç nə istəməyəcəyəm!”– deyərək, and içib söz verəcək. Allah da onun üzünü oddan döndərəcək. Allah onun üzünü Cənnətə tərəf çevirdikdə, o, Cənnətin gözəlliyini görüb, bir müddət susduqdan sonra: “Ey Rəbbim, məni Cənnətin qapısına yaxınlaşdır”– deyəcək. Allah buyuracaq: “Məndən daha heç nə istəməyəcəyinə dair and içib söz vermişdin? Ey Adəm övladı, sən necə də bivəfasan!” Adam Rəbbinə çoxlu dua edəcək. Nəhayət, Allah buyuracaq: “İstədiyini yerinə yetirsəm, başqa bir şey istəməyəcəksən ki?” O: “Sənin izzətinə and olsun ki, yox!”– deyərək, Allaha söz verəcək. Allah da onu Cənnətin qapısına yaxınlaşdıracaq. O, Cənnətin qapısına yaxınlaşdıqda oradakı nemətləri görüb, bir qədər səbir etdikdən sonra: “Ey Rəbbim, məni Cənnətə daxil et!”– deyəcək. Bu zaman uca Allah ona belə buyuracaq: “Sənə verdiklərimdən başqa heç nə istəməyəcəyinə dair and içib söz verməmişdinmi? Vay sənin halına, ey Adəm oğlu, sən yenə də vədinə xilaf çıxdın!” O: “Ey Rəbbim, qoy,

Sənin yaratdıqlarının ən bədbəxti mən olmayım!"– deyərək, Rəbbinə yalvarıb dua edəcək. Axırda, uca Allah onun üzünə gülümsəyib: "Cənnətə gir və Məndən nə diləyirsən, dilə!"– buyuracaq. O da, Rəbbindən o qədər çox şey istəyəcək ki, *axırda heç bir diləyi qalmayacaq*. Nəhayət, uca Allah: "Filan şeyi, filan şeyi də *dilə*!" *buyuraraq* ona daha artığını xatırladacaq. Artıq onun heç bir istəyi qalmadıqda uca Allah buyuracaq: "Bu istədiklərin və onun on misli sənindir."[1]

Sonda, hamımız üçün dua edib deyirik:

((اللَّهُمَّ اقْسِمْ لَنَا مِنْ خَشْيَتِكَ مَا تَحُولُ بِهِ بَيْنَنَا وَبَيْنَ مَعَاصِيكَ، وَمِنْ طَاعَتِكَ مَا تُبَلِّغُنَا بِهِ جَنَّتَكَ، وَمِنَ الْيَقِينِ مَا تُهَوِّنُ بِهِ عَلَيْنَا مَصَائِبَ الدُّنْيَا، وَمَتِّعْنَا بِأَسْمَاعِنَا، وَأَبْصَارِنَا، وَقُوَّاتِنَا مَا أَحْيَيْتَنَا، وَاجْعَلْهُ الْوَارِثَ مِنَّا، وَاجْعَلْ ثَأْرَنَا عَلَى مَنْ ظَلَمَنَا، وَانْصُرْنَا عَلَى مَنْ عَادَانَا، وَلَا تَجْعَلْ

[1] "Səhih Muslim", 182.

مُصِيبَتَنَا فِي دِينِنَا، وَلَا تَجْعَلِ الدُّنْيَا أَكْبَرَ هَمِّنَا، وَلَا مَبْلَغَ عِلْمِنَا، وَلَا تُسَلِّطْ عَلَيْنَا مَنْ لَا يَرْحَمُنَا))

"Allahım, bizə Öz tərəfindən elə təqva bəxş et ki, o, bizimlə günahlar arasına sədd çəksin, Sənə itaət etmək üçün bizə elə qüdrət bəxş et ki, o, bizi Sənin Cənnətinə yetişdirsin və bizə elə yəqinlik bəxş ki, o, dünyadakı müsibətlərə səbir etməyi bizim üçün asanlaşdırsın! Bizi yaşatdıqca, qulağımızdan, gözümüzdən və gücümüzdən səmərəli istifadə etməyi bizə nəsib et və bunların sayəsində bizə qoyub gedə biləcəyimiz miras nəsib et! Bizə zülm edən kimsədən intiqam almağımız, habelə, bizimlə düşmənçilik edən kimsəyə qalib gəlməyimiz üçün yardım et! Bizə göndərəcəyin müsibəti dinimizə aid etmə! Dünya malını bizim ən böyük arzumuz və ən ali qayəmiz etmə! Bizə rəhm etməyən kimsələri bizim üzərimizdə hökmran etmə!"[1]

[1] "Sunən ət-Tirmizi", 3502; "Səhih əl-Cami", 1268.